# Balacalara qayğı- gələcəyimizə qayğıdır

Heydər Əliyev Fondunun prezidenti, ölkənin birinci xanımı Mehriban Əliyeva və Fondun vitse-prezidenti Leyla xanım Əliyeva, bacısı Arzu Əliyeva son zamanlarda ardıcıl olaraq Bakı şəhərində və onun ətraf qəsəbələrində bir sıra körpələr-evi uşaq bağçalarının, uşaq evlərinin internat məktəblərinin məzunları üçün tikilən yaşayış binalarının açılışlarında iştirak edirlər. Sentyabr ayının ikinci yarısından indiyədək belə obyektlərin sayı 25-dən çox olmuşdur.

Fondun prezidenti və vitse-prezidenti hər yerdə gül-çiçək dəstələri ilə qarşılanmışdır. Sakinlər tərəfindən hər yerdə körpələrə və əlil uşaqlara yaradılan şəraitə görə dövlətimizə, Heydər Əliyev Fondunun rəhbərliyinə dərin minnətdarlıq bildirilmişdir.

Bakının Buzovna qəsəbəsindəki 289 nömrəli körpələr evi-uşaq bağçası 1976-cı ildən fəaliyyət göstərmiş və ötən illər ərzində heç bir vaxt əsaslı təmir olunmamışdır. Lakin 2012-ci ildə burada yenidənqurma işlərinə başlanmış, hazırda bağçada uşaqlar üçün yüksək səviyyəli şərait yaradılmışdır.

Buzovna, Binə, Türkan, Badamdar qəsəbələrində və şəhərin digər zonalarında yeni tikilən və bərpası təşkil olunan körpələr evi-uşaq bağçalarında uşaqların təlim-tərbiyəsi, istirahəti, sağlamlığının qorunması, isti yeməklərlə təmin olunması üçün hər cür şərait və imkan vardır.

Əhalinin sağlamlığının qorunması Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr sırasında mühüm yer tutur. Bu layihə çərçivəsində fondun təşəbbüsü ilə Xəzər rayonunun Türkan qəsəbəsində yeni poliklinika binası da tikilmişdir. Mehriban xanım Əliyeva poliklinika binasının açılışında iştirak etmişdir.

Leyla xanım Əliyevanın Nizami rayonundakı 1 nömrəli, Xətai rayonundakı 3 nömrəli və «Yeni Günəşli» yaşayış massivindəki 2 nömrəli uşaq evlərinin sakinləri ilə görüşləri zamanı onlar bu uşaq evlərində də yaradılan yüksək səviyyəli şəraitə görə Heydər Əliyev Fondunun rəhbərliyindən çox-çox razı qaldıqlarını bildirmişlər. Artıq bir neçə ildir ki, uşaq evlərinin balaca sakinləri Heydər Əliyev Fondunun dəstəyi ilə uşaqların əl işlərindən ibarət sərgilər təşkil edilir, onlar hətta belə sərgilərlə xaricdə keçirilən bir sıra müsabiqələrin iştirakçısı olurlar.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyeva və Arzu xanım Əliyeva Cənubi Qafqazda ilk dəfə yaradılan Daun Sindromlu Şəxslərin Assosiasiyasında da olmuşlar. Burada bildirilmişdir ki, assosiasiyanın əsas məqsədi daun sindromlu şəxslərin, eləcə də onların ailə üzvlərinin sosial-mədəni reablitasiyası və cəmiyyətə inteqrasiyasıdır. Asosiasiyanın nəzdində 96 uşaq və yeniyetmə öz vaxtlarını səmərəli keçirmək imkanına malikdirlər. Burada «Dəcəllər» teatrı, rəqs, rəsm dərnəkləri, aşpazlıq məktəbi də fəaliyyət göstərir.

Qeyd olunmuşdur ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə yaxın zamanlarda Nizami rayonu ərazisində Daun Sindromlu Şəxslərin Assosiasiyasının yeni binası istifadəyə veriləcəkdir.

Görüşlərdə uşaqlara Fond tərəfindən hədiyyələr təqdim edilmiş, onlarla xatirə şəkilləri çəkdirilmişdir.

**Nadir ATAKİŞİYEV.**

# Məktəbdə tədbir

Ötən həftə Kiçik Pirəli kənd tam orta məktəbində Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü münasibətilə geniş tədbir keçirilmişdir. Tədbiri giriş



sözü ilə məktəbin direktoru Elsevər Mustafayev açmış, Azərbaycanın Dövlət Bayrağı, onun yaranma tarixi haqqında geniş məruzə etmişdir.

Tədbirdə rayon təhsil şöbəsi metodkabinetinin müdiri Arifə Bayramova çıxış edərək Dövlət Bayrağının yaranma tarixindən, onun yenidən bərpasında ümummilli lider Heydər Əliyevin misilsiz xidmətindən, habelə möhtəşəm Dövlət Bayrağı Meydanının yaradılmasında ölkə Prezidenti İlham Əliyev cənablarının rolundan, qələbəmizin və müstəqilliyimizin əbədi və dönməz olmasından danışmışdır.

Məktəbin IV sinif şagirdlərinin hazırladıqları ədəbi-bədii kompozisiya iştirakçılar tərəfindən maraqla qarşılanmışdır.

**Mülayim ALLAHVERDİYEVA,**
**məktəbin müəllimi.**

# Sosìal tərəfdaşların məşğulluq xìdmətìndə rolu

## *(«Dəyirmi masa» ətrafında söhbət)*

Respublikamızda ulu öndər Heydər Əliyev dövlət quruculuğu fəlsəfəsində əhalinin sosial təminatının daima gücləndirilməsini çoxşaxəli fəaliyyətinin prioritet istiqamətlərindən biri kimi müəyyən edərək bu istiqamətdə məqsədyönlü siyasət həyata keçirməklə yeni ictimai-iqtisadi farmasiyada insanların yüksək həyat səviyyəsinin etibarlı təminatına nail olmuşdur.

Ulu öndərin layiqli varisi Prezident İlham Əliyev cənablarının rəhbərliyi altında ümummilli liderin inkişaf strategiyasının uğurlu davamı məşğulluq və sosial sferada da özünü qabarıq biruzə verərək bu sahənin tərəqqisini daha dinamik hala gətirmişdir.

Bu gün ölkəmizdə uğurla həyata keçirilən sosial siyasətin əsas parametrlərindən birini təşkil edən əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi Dövlət Məşğulluq Xidməti Orqanlarının əsas fəaliyyət istiqamətini təşkil edir. Məşğulluq Xidməti Orqanları fəaliyyətində işaxtaran və işsiz vətəndaşların sosial müdafiəsinin təmin olunması məqsədilə daha çox aktiv məşğulluq tədbirlərinin; işədüzəltmə,"Əmək Yarmarkaları", peşə hazırlığı, haqqı ödənilən ictimai işlərin təşkilinə və həyata keçirilməsinə üstünlük verir. Aktiv məşğulluq tədbirlərinin effektiv həyata keçirilməsi isə birbaşa işəgötürənlərin Məşğulluq Xidməti orqanları ilə fəal tərəfdaşlığından asılıdır. Bunu nəzərə alaraq hər il olduğu kimi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Məşğulluq Xidməti Orqanının və Rayon İcra Hakimiyyətinin rəhbərliyi altında Qəbələ rayon Məşğulluq Mərkəzinin təşkilatçılığı ilə 5 noyabr 2013-cü il tarixdə rayon ərazisində fəaliyyət göstərən işəgötürənlərin nümayəndələrini cəlb etməklə "Sosial tərəfdaşların Məşğulluq Xidmətində rolu " mövzusunda "Dəyirmi Masa" keçirildi. Tədbirdə rayon ərazisində fəaliyyət göstərən 30-dan artıq müəssisə və təşkilatın nümayəndəsi iştirak edirdi.



Tədbiri giriş sözü ilə açan Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Məşğulluq Xidmətinin Qəbələ rayon Məşğulluq Mərkəzinin direktoru Elxan Səlimov gündəlikdə duran məsələlər ətrafında geniş açıqlama verərək, məşğulluq və işsizzlik problemi, əhalinin səmərəli məşğulluğunun təmin edilməsi məsələləri, mövcud problemlər və onların aradan qaldırılması istiqamətləri , dövlət məşğulluq siyasəyinin həyata keçirilməsində sosial tərəfdaşların hüquq və vəzifələri kimi məsələlərə aydınlıq gətirdi.

E. Səlimov dövlət məşğulluq siyasətinin həyata keçirilməsində işə götürənlərin hüquq və vəzifələrinin Azərbaycan Respublikasının "Əmək Məcəlləsi" və "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimləndiyini qeyd edərək qanunun müvafiq maddələrinə açıqlama gətirdi. O, həmçinin işəgötürənlərin Dövlət Statistika Komitəsinin təsdiq etdiyi formalar üzrə Məşğulluq Mərkəzinə vaxtlı-vaxtında məlumatların təqdim olunmamasına görə Azərbaycan Respublikasının "İnzibati Xətalar Məcəlləsində" nəzərdə tutulmuş cərimələr haqqında geniş məlumat verdi.

Elxan Səlimov həmçinin rayon əhalisinin səmərəli məşğulluğunun təmin olunmasında Məşğulluq Mərkəzi tərəfindən görülmüş işlər məşğulluq və işsizlik səviyyəsi, məşğul əhalinin iqtisadiyyatın sahələri üzrə bölgüsü barədə geniş məlumat verdi, Dövlət Statistika Komitəsi tərəfindən təsdiq olunmuş hesabat formalarına aydınlıq gətirdi. Həmin formaların vaxtlı-vaxtında verilməsinin əhəmiyyətindən danışaraq bu sahədə yaranan problemləri vurğuladı. Həmçinin işə qəbul, işdən çıxanlar, ştatların ixtisarı, işə düzəltmə, kvota üzrə işə düzəltmə kimi məsələlərə aydınlıq gətirərək, bu sahədə işəgötürənlərin vəzifələrini açıqladı.

Mərkəzin direktoru işəgötürənlərin Mərkəzlə sıx tərəfdaşlığının işaxtaranların işlə təmin edilməsində vacib olduğu qədər, işəgötürənlərin də vaxtında və yüksək ixtisaslı işçi qüvvəsinə olan tələbatının ödənilməsindəki rolunu vurğuladı.

Tədbirdə Qəbələ Quşçuluq ASC-nin kadrlar şöbəsinin müdiri Şahsoltan Şəkərxanov, təhsil şöbəsinin nümayəndəsi Nüsrət Nuruyev, Qəbələ Müalicə Diaqnostika Mərkəzinin kadrlar şöbəsinin müdiri Mahir Kərimxanov, Peşə məktəbinin kadrlar üzrə mütəxəssisi Ofelya Manafova, Baytarlıq İdarəsinin baş mühasibi Mustafa Əhmədov çıxış edərək Mərkəzlə əlaqələrin gücləndirilməsinin, işəgötürənlərin lazımi məlumatları vaxtlı-vaxtında Mərkəzə təqdim etməsinin o, cümlədən dəyirmi masaların keçirilməsinin əhəmiyyətindən danışdılar.

«Dəyirmi masa» ətrafında gedən dialoqlarda iştirakçıların suallarına aydınlıq gətirildi.

Tədbirdə Qəbələ Rayon İcra Hakimiyyətinin nümayəndəsi Pərvin Məmmədov iştirak edirdi.

**Miri RƏHİMOV,**
**«Qəbələ» qəzetinin əməkdaşı.**